MUSA ƏLƏKBƏRLİ

# Böyük alim, nəcib insan

**Nizami Cəfərov böyük intellekt, yüksək təfəkkür, iti ağıl sahibidir.Hər hansı ədəbi fakta, baş verən önəmli hadisəyə onun öz baxış bucağı,özəl münasibət ölçüsü var. Səmimi və inandırıcı danışıq tərzi, natiqlik istedadı, nitq mədəniyyəti həmişə ətrafın-dakıların ona diqqət kəsilməsinə səbəb olur.**

Müraciət etdiyi məsələyə hərtərəfli, konseptual şəkildə yanaşır. O, həm zərgər dəqiqliyi ilə seçilən dilçi alim, həm haqqı nahaqqa verməyən, obyektiv tənqidçi, həm ədəbiyyatımızın tarixi inkişaf yolunu mükəmməl şəkildə izləyən görkəmli ədəbiyyatşunas, həm xalqımızın adət-ənənələrini, mentalitetini cani-dildən istəyən, qiymət-ləndirən etnoqraf, həm tariximizin bütün mərhələlərinə dərindən bələd olan tarixçi alim, həm də planetimizin fəlsəfi dərkini, dünyaduyumunu özünəməxsus şəkildə, orijinal üslubla ifadə edən böyük filosofdur.



Nizami müəllim nədən, kimdən söhbət açırsa açsın geniş ümumiləşdirmə imkanlarını üzə çıxarır, həmin faktı (əsəri, yazıçını, şairi) ədəbi hadisə səviyyəsində təqdim etməyi bacarır. Nizami Cəfərov fenomen şəxsiyyətdir. Çağdaş qələm adamlarının bəlkə də böyük əksəriyyətinin ən böyük arzusu onun qələminə düşmək, nəzər-diqqətini cəlb etmək, onun hər hansı nitqində, yazısında öz adını görmək, eşitməkdir. Nizami müəllim yaradıcılığında tez-tez ədəbi-fəlsəfi terminlərə müraciət edir. Bu terminlər onun nitqində həmişə yeni məna ifadə edir, orijinal məzmun daşıyıcısına çevrilir. Nizami müəllim böyük türkoloqdur. Atatürk mərkəzinin rəhbəri kimi onun gördüyü cahanşumul işlər, keçirdiyi çoxsaylı tədbirlər xalqımızın elm və mədəniyyət tarixinə qızıl hərflərlə yazılmaqdadır. Millət vəkili, elm və mədəniyyət komissiyasının üzvü kimi fəaliyyəti də onun ictimai xadim, dövlət adamı olaraq cəmiyyətdə tutduğu mövqeyin, daşıdığı vəzifənin önəmli göstəricisidir. Filologiya elmləri doktoru, professor, Milli Elmlər Akademiyasının həqiqi üzvü, gözəl alim, nəcib insan Nizami Cəfərov bir çox yazıçı və şairlərmiz kimi mənim də dostumdur. Mən bundan hədsiz qürur duyuram. Mənim 2000-ci ildə Azərbaycan Yazıçılar Birliyinin ”Natəvan” klubunda keçirilən əlliillik, Rəşid Behbudov adına Muğam teatrında keçirlən altmışillik yubileylərimin aparıcısı da dostum Nizami Cəfərov olub. ”Dünya sevgidən doğulub” (Şur 2007-ci il) kitabıma da Nizami müəllim ”Musa Ələkbərli və onun sevgi fəlsəfəsi” adlı dəyərli bir ön sözü yazıb. Nizami Cəfərovu xalqa sevdirən onun böyük insanlığı,sadə, səmimi təbiəti, hər cür sünii rəsmiyyətçilikdən uzaq, saf, açıq ürəyi, hamını dinləmək, əlindən gələn qədər yaxşılıq etmək cəhdidir. El içində ”Qalstuqsuz alim” kimi şöhrət tapan, papulyarlaşan Nizami müəllimi hər kəs öz doğması, əzizi kimi qəbul edir, ona dəruni bir inam bəsləyir,ürək qızdırır. Bu mənada millət vəkilliyi sanki onun boyuna biçilib, məramının, məqsədinin reallaşan, əyaniləşən bir şəklinə çevrilib.

Nizami Cəfərov yaxın şərqin, xüsusən, türk xalqlarının hamısının tanıdığı, qiymətləndirdiyi, sevdiyi böyük alimdir.

Uzun illərdir ki, o, türk dünyasında boy göstərən alim həmkarları ilə birlikdə ortaq türk dili üzərində işləyir, bu məsələnin uğurlu həlli üçün əlindən gələni əsirgəmir. Mənə elə gəlir ki, türk xalqlarının ortaq dili onun Çingiz Aytmatov, Oljas Süleymanov, Bəxtiyar Vahabzadə və Nizami Cəfərov kimi barmaqla sayılan oğullarıdır. Mən dostum Nizami Cəfərovun altmışillik yubileyini ürəkdən təbrik edir, ona ən azı altmış il də belə uğurlu fəaliyyət arzulayıram.

Bu yaxınlarda Nizami müəllim cənab prezident İlham Əliyevin fərmanı ilə ”Şöhrət” ordeni ilə təltif edildi. Bu xəbəri eşidərkən dilimdə bədahətən dörd misralıq bir şeir səsləndi.

**Elmi zənginliyi, ağlı, fitrəti,
Ulu yaradanın səxasındadır.
Nə gözəl məqamdır, ”Şöhrət” ordeni
Şöhrətli alimin yaxasındadır!**

Şeirdən söz düşmüşkən mən 2013-cü ildə yazdığım, dostum Nizami Cəfərova həsr etdiyim ”Adın ucalığı” şeirimi də hörmətli yubilyarımızın və ”Ədalət” qəzetinin oxucularına təqdim etmək istəyirəm.

## *Adın ucalığı*

**Millət vəkili, dostum Nizami Cəfərova**

**Adın ucalığı tanrıdan gəlib,
Tale tək, qismət tək verilib sənə.
Nizami adıyla sən də yüksəlib
Ziya nuru saçdın yurda, vətənə.**

**Bir ömür çəlləşdin ocaqla, odla
Gündüz dincəlməyib, gecə yatmayıb.
Gəncəvidən sonra hələ bu adla
Kimsə sənin qədər kama çatmayıb.**

**Həmişə dildə gəz, həmişə öyül,
Haqqına deyilən tərif bahadır.
Nizami Cəfərov Gəncəvi deyil,
Gəncəvi adına layiq duhadır.**

**Yanına gələnlər, gedənlər bol-bol,
Ürəyin genişdir, qapın açıqdır.
Yaxşılıq naminə tutduğun bu yol
Gedib övliyalar yoluna çıxdı.**

**Dərddi susuz qalıb bir çiçək solsa,
Dərd də var birbaşa fələkdən keçər.
Səxavətin qədər sərvətin olsa
Məzlumlar düzülər boy sırasına
Ələnər, əlində ələkdən keçər.**

**ATATÜRK MƏRKƏZİ - millət atası
Böyük Atatürkün odasıdır bu.
Köməyə yetişib, hoya çatası
Bir ümid, ümidgah adasıdır bu!**

**İnsanlar üzülmür heç vaxt yanından,
Sənin dəyişməyən halına əhsən!
Fırtına qorxusu çıxıb canından,
Dərya qoynundakı salına əhsən!**

**Daim yaxşılıqdır fikrin, niyyətin,
Könül ki qırmadın xəta eyləyib.
Tanrı sənin kimi bir şəxsiyyəti
Türkə, türkçülüyə əta eyləyib.**

**Ürək genişliyin, hissin, ağılın
Çox incə duyğular oyatmaqdadır.
Vurğun səxavəti, Vurğun nağılı
Adınla təzədən boy atmaqdadır.**

**Çevikdi, yüyrəkdi şerin də dili,
Ürəkdən gəlirsə, o saxta deyil.
Milli ruhu varsa millət vəkili
Heç zaman millətdən uzaqda deyil.**

**Şairi qınama sözünün üstə,
Qürur yaşamışam, səninlə qürur.
Unutma Qazağın yolunun üstə
Yayda gül-çiçəkli Gədəbəy durur!**

Ədalət.-2019.-1 oktyabr.-S.6.